

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*

**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*

**İlham ƏLİYEV**

Bir parça daş vətəndir!

*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 04 (19) Aprel 2026-cı il




## Akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans keçirilib







**29 aprel 2026-cı il tarixində Azərbaycan xalqının görkəmli alim-oftalmoloqu, akademik Zərifə Əliyevanın anadan olmasının ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində Saatlı rayonunda yerləşən Gənclər Mərkəzində akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.

Konfrans Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızının moderatorluğu ilə baş tutub. Sonra Qərbi Azərbaycan Televiziyasının hazırladığı "Zərifə Əliyeva: nəsillərə örnək ömür yolu" adlı film nümayiş etdirilib.

Tədbirdə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Qərbi Azərbaycan İcmasının təmsilçiləri – İdarə heyətinin sədri və müavini, Milli Məclisin deputatları Əziz Ələkbərli və Hikmət Məmmədov, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov, İcmanın Ağsaqqallar Şurasının üzvü, professor Paşa Qəlbinur və digər rəsmi şəxslər çıxış ediblər. "Zərifə Əliyeva: nəsillərə örnək ömür yolu", "Azərbaycan səhiyyə tarixində Zərifə Əliyeva irsi", "İrəvanın əsilzadə nəslinin parlaq nümayəndəsi" və "Zərifə Əliyeva: fenomen Azərbaycan qadını" mövzularında məruzə və çıxışlar təqdim olunub və alimin çoxşaxəli fəaliyyəti geniş müzakirə edilib.

Çıxışlarda akademik Zərifə Əliyevanın Azərbaycan səhiyyəsinin inkişafındakı müstəsna rolu, zəngin elmi irsi və yüksək mənəvi dəyərlərə əsaslanan həyat yolu geniş şəkildə təqdim olunub. Qeyd olunub ki, onun fəaliyyəti bu gün də tibb ictimaiyyəti üçün örnək olaraq qalır. Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının rəhbər nümayəndə heyəti gün ərzində keçirilən bütün tədbirlərdə fəal iştirak edib.

## Akademik Zərifə Əliyevanın anadan olmasının ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində səyyar humanitar tibbi aksiya təşkil olunub

***29 aprel 2026-cı il tarixində Azərbaycan xalqının görkəmli alim-oftalmoloqu, akademik Zərifə Əliyevanın anadan olmasının ildönümü münasibətilə Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının təşəbbüsü və TƏBİB-in dəstəyi ilə Saatlı rayonunda silsilə tədbirlər həyata keçirilib.***

Akademik Zərifə Əliyevanın anadan olmasının ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində Saatlı rayonunun Şirinbəyli kəndində səyyar humanitar tibbi aksiya təşkil olunub. Aksiya zamanı müxtəlif ixtisaslar üzrə həkim briqadaları tərəfindən yerli əhaliyə tibbi müayinələr aparılıb, zəruri məsləhətlər verilib və ehtiyac yarandıqda ixtisaslaşmış tibb müəssisələrinə yönləndirmələr həyata keçirilib.





Qərbi Azərbaycan İcmasının nümayəndə heyəti – Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli, sədrin müavini, Milli Məclisin deputatı Hikmət Məmmədov, Qadınlar Şurasının sədri, millət vəkili Məlahət İbrahimqızı, Şuranın sədr müavini, Qərbi Azərbaycan Televiziyasının rəhbəri Telli Pənahqızı, İcmanın Ağsaqqallar Şurasının üzvü, professor Paşa Qəlbinur, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov, Sabunçu rayon 2 saylı Tibb Mərkəzinin direktoru, 2 saylı doğum evinin baş həkimi Səadət Şamilova, 11 saylı Uşaq Poliklinikasının baş həkimi Məlahət İbrahimova və digər rəsmi şəxslər, həmçinin Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov aksiyanın gedişatı ilə yerində tanış olublar.

Məlahət İbrahimqızı vətəndaşlarla söhbət zamanı sağlamlığın qorunmasının vacibliyini vurğulayaraq, profilaktik müayinələrin vaxtında aparılmasının əhəmiyyətindən danışıb, xüsusilə həssas əhali qruplarına diqqətin artırılmasının prioritet olduğunu qeyd edib və vətəndaşlara öz sağlamlıqlarına daha həssas yanaşmağı tövsiyə edib.

Gün boyu davam edən aksiya əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb.

Qeyd edək ki, layihənin rəhbəri Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızıdır.



*Qərbi Azərbaycan İcması İdarə heyətinin üzvü, Keşkənd icmasının sədri, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor*

**MAHİRƏ HÜSEYNOVANI**

*Ağsaqqallar Şurasının İdarə Heyətinə üzv seçilməsi münasibətilə səmimi qəlbdən təbrik edirik.*

***Bu məsuliyyətli və yüksək etimad tələb edən vəzifəyə seçilməyiniz, Sizin cəmiyyət içində qazandığınız nüfuzun və uzun illər ərzində formalaşan zəngin fəaliyyətinizin göstəricisidir. Əminik ki, yeni vəzifənizdə də prinsipial mövqeyiniz və dəyərli təşəbbüslərinizlə cəmiyyətə faydalı xidmətlərinizi davam etdirəcəksiniz.***

**Uğurlarınız davamlı olsun!**

# İsveçli rejissor tərəfindən Qərbi Azərbaycanın mədəni və ədəbi irsinə dair hibrid sənədli film çəkilir

**Azərbaycan Respublikasının İsveç Krallığındakı Səfirliyinin təşəbbüsü ilə isveçli rejissor Mikael Silkeberq tərəfindən Qərbi Azərbaycanın mədəni və ədəbi irsinə dair hibrid sənədli film çəkilir.**



Film çərçivəsində Aşıq Ələsgər və Mirzə Qədim İrəvaninin yaradıcılığı, Qərbi Azərbaycana aid adət-ənənələr, aşıq sənəti, xalçaçılıq, geyim və mətbəx nümunələri kimi mövzular əhatə ediləcəkdir.

Qeyd edək ki, Azərbaycan mədəniyyətinin böyük dostu olan Mikael Silkeberg daha öncə Şuşanın tarixi və mədəni irsi haqqında “Xarı Bülbül Əfsanəsi”, Tur Heyerdalın nəzəriyyəsi əsasında Skandinaviya və Azərbaycan arasında tarixi əlaqələr haqqında “Odin Kodu”, Naxçıvanın tarixi və mədəni irsi haqqında “Nuhun ayaq izləri” və Azərbaycanın caz ənənələri haqqında “Folklor cazının Qərbdən Şərqə uzanan hekayəsi” adlı sənədli filmlər ərsəyə gətirmişdir. Bu filmlər çoxsaylı xarici ölkələrdə nümayiş etdirilərək ölkəmizin beynəlxalq təbliğinə töhfə verməkdədir.



# Xaçmaz Dövlət Peşə Təhsil Mərkəzində “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda açıq dərs keçirilib





**24 aprel 2026-cı il tarixində Xaçmaz Dövlət Peşə Təhsil Mərkəzində vətənpərvərlik ruhunda genişmiqyaslı tədbir təşkil olunub. Dövlət Himni və şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayan tədbiri mərkəzin direktoru Tural Məmmədov açaraq, gənclərin peşə hazırlığı ilə yanaşı, milli ruhda böyüməsinin vacibliyini vurğulayıb.**

Tədbir çərçivəsində Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd kənd icmasının sədri, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynovanın təqdimatında “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda açıq dərs keçirilib.

Professor Mahirə Hüseynova çıxış edərək Göyçə, Zəngəzur və Dərələyəz mahallarının qədim türk yurdu olduğunu dilçilik və tarixi faktlarla sübut edib. O, həmçinin xalqımızın öz dədə-baba yurdlarından didərgin salınmasının siyasi səbəblərini təhlil edərək, çıxışını "Ana" şeiri ilə yekunlaşdırıb.

Elm və Təhsil Nazirliyinin şöbə müdiri Rövşən Ağayev Qərbi Azərbaycan mövzusunun təhsil proqramlarına dərindən inteqrasiya olunmasının əhəmiyyətini qeyd edib.

Açıq dərsdə rəsmi qonaqlar və ziyalılar iştirak ediblər. İştirakçılar arasında:

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məsul əməkdaşları Rövşən Ağayev və Hilal Salmanov;

Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının İctimai humanitar məsələlər sektorunun baş məsləhətçisi Ramiz Qaflanov;

ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Könül Səmədova;

Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin müdiri, t.ü.f.d. Leyla Cəlalova, Mərkəzin fəal üzvü Möhübbət Məmmədov;

Ümumi tarix və tarixin tədrisi texnologiyaları kafedrasının müdiri,dosent Dəyanət Musayev;

Mərkəzin müəllim heyəti və tələbələr yer alıblar.

Qonaqlar "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" ətrafında çıxışlar edib, regionlarda bu növ maarifləndirici görüşlərin keçirilməsini yüksək qiymətləndiriblər. Sonda iştirakçılara kitablar hədiyyə olunub və xatirə şəkli çəkdirilib.

**20 aprel 2026-cı il tarixində Qərbi Azərbaycan İcması və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qax şəhərində keçirilən "Yaşayan yaddaş, sönməyən ümid" mövzusunda elmi-praktik konfrans keçirilib.**

# "Yaşayan yaddaş, sönməyən ümid" mövzusunda elmi-praktik konfrans keçirilib

***Prof.Mahirə Hüseynova və dos.Könül Həsənova Qax rayonunda keçirilən konfransda iştirak ediblər***








Konfransda Qərbi Azərbaycan İcmasını təmsil edən nümayəndə heyəti iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

Sonra konfransın keçirildiyi rayon Heydər Əliyev Mərkəzində Qərbi Azərbaycanın mədəni irsini və zəngin mətbəxini əks etdirən sərgiyə baxış olub.

Tədbirin rəsmi hissəsi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Qərbi Azərbaycan həqiqətləri ilə bağlı videoçarx nümayiş etdirilib.

Qərbi Azərbaycan İcmasının Qax rayonu üzrə nümayəndəsi Həsən Tarverdiyev çıxışında Qərbi Azərbaycan ruhunun yaşadılması və bu irsin gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıb. O, Qərbi Azərbaycanın sadəcə coğrafi məkan deyil, xalqımızın milli kimliyinin, köklərinin və tarixi yaddaşının bir parçası olduğunu diqqətə çatdırıb. Həsən Tarverdiyev həmin torpaqlarda səslənən laylaların, bayatıların və qalanan ocaqların bu gün də hər bir azərbaycanlının qəlbində yaşadığını qeyd edib.

İcmanın İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetin prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova çıxışında azərbaycanlıların ayrı-ayrı illərdə Ermənistandakı dədə-baba torpaqlarından deportasiyasını, işgəncələrə məruz qalmasını, müxtəlif toponimlərimizin dəyişdirilərək erməniləşdirilməsini tarixi faktlarla diqqətə çatdırıb. Professor Qərbi Azərbaycan reallıqlarının regionlarda daha geniş təbliğ edilməsi istiqamətində görülən işlərdən danışıb, belə konfransların Qərbi Azərbaycan həqiqətlərinin təbliğində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Dövlət başçısının 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşündəki fikirlərinə istinad edən Mahirə Hüseynova, dədə-baba torpaqlarımıza qayıdış strategiyasının tarixi və siyasi əhəmiyyətini diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında bildirib ki, son 200 ildə Azərbaycan xalqının başına gətirilən faciələrin cavabının tapılması, haqq səsimizin dünyaya çatdırılması və tapdalanan haqqımızın bərpası üçün bu gün əlverişli şərait yaranıb. O, Qərbi azərbaycanlıların öz ata-baba yurdlarından zorla çıxarıldığını, o torpaqlara qayıdışın zərurət olduğunu, soydaşlarımızın böyük ümid və əminliklə geri qayıdacaqları günü gözlədiklərini vurğulayıb.

Tədbirdə çıxış edənlər – Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, əslən Qərbi Azərbaycandan olan müəllim Afaq Abdullayeva və Qax şəhər 1 nömrəli tam orta məktəbin tarix müəllimi Məryəm Muradova son iki əsrdə azərbaycanlılara qarşı yürüdülən etnik təmizləmə və deportasiya siyasətinin ağır nəticələrini diqqətə çatdırıblar. Vurğulanıb ki, beynəlxalq hüquqa və tarixi faktlara əsaslanan "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" tarixi ədalətin bərpası və sülhün təmin olunması üçün strateji əhəmiyyətə malikdir. Həmçinin bu tarixi reallıqların gənc nəslə çatdırılmasının və milli yaddaşın qorunmasının vacibliyi xüsusi qeyd olunub.

Elmi-praktik konfrans ədəbi-bədii, musiqili proqramla başa çatıb.

# Xatirələrdə yaşayan bir kənd: Qatar

***Kəndimiz haqqında eşitdiklərimdən bir roman yazmaq mümkündür. Tarix səhnəsindən silinmiş doğma kəndim haqqında yazı yazmaq, əcdadlarımdan mənə ötürülən kədərli bir xatirə , həmdə keçmişimizə duyuduğum bir ehtiramdır. Kəndimiz təkcə yaşayış məskəni yox, həmdə bir xalqın elinə obasına bağlılığın dözümünün rəmzidir. Deyirlər məhv edilmiş bir kənd , təkcə sökülmüş bir dam deyil , kəsilmiş bir şəcərə , susdurulmuş bir həyatdır. Hər dəfə Qatar kəndi haqqında danışanda daxilimdə, babamın danışdığı xatirələr gözümün önündə canlanır.***

Qatar kəndinin ərazisi hazırda Qafan şəhərinin bir hissəsini təşkil edir. Oxçu çayı sahilindəki bəzi düzənliklər hələ də yerli əhali arasında "Qatar şamı" adı ilə tanınan ərzidə yerləşirmiş. Kəndimizin tarixçəsi Azərbaycanımızın böyük tarixi ilə heyrətamiz dərəcədə üst-üstə düşən, uzlaşan acı və bənzər hadisələrlə zəngindir.

Qatar adının toponomikası "zəncirvari qaya, təpə", mənasında işlənən qatar sözü əsasında əmələ gələn orotoponimdir. Quruluşca sadə toponimdir. Azərbaycanda və Ermənistan ərazisində bir sıra toponimlərdə "qatar" və "qatır" sözünün dəqiq mə'nasını müəyyən etmək çətİndir. İlk dəfə "Alban tarixi"ndə Albaniyada Katarvəng ("Alban tarixi", II kitab, 6-cı fəsil) və Kataray (I kitab, 34-cü fəsil) toponimləri qeyd olunur. XIX əsrdə Tiflis quberniyasının Axalsix qəzasında Kater-Yurt, İrəvan quberniyasının Sürməli qəzasında Katerlu dağı və Katerlu adlı iki kənd, Tiflis quberniyasının Siqnax qəzasında Katar dağ beli, həmin quberniyanın Tioneti qəzasında Kataris-Xevi çay adı, İrəvan quberniyasının Katar-Qain keçidi, Aleksandropol qəzasında Katarqaya, Zəngəzur qəzasında Katar-Daş dağı, Quba rayonun Qaytar-Qoca dağı adları göstərir ki, bu toponimlərin bə'ziləri katar (qaytar) tayfa adını, bəziləri Azərbaycan dilində qatar "cərgə", "zəncirvarı (qaya, təpə)", bəziləri isə türk dillərində kadır "sıldırım", "yarğanlı" sözünü əks etdirir, lakin bəzi toponimlərdə (məsələn, Yevlax rayonunda Qatırölən toponimi) bu söz qatır (heyvan adı) sözündən ibarətdir. XIX əsrin ortalarında Qaraqoyunlu kəndinin (Novobayazid qəzası) Çalmalı dağında yaylaq yerində yurdu da Qatar adlanırdı.Kəndin tam adı "Qatar şam"ı olmuşdur. Soyqırımlardan sağ çıxmış kənd sakinlərinin öz kəndlərinin tarixi haqqında dedikləri xatirələrdə isə xan ordusunun nizami düzülmüş ordusunun nəslindən gəldikləri haqqında rəvayətlər söylənilirdi.



**Namiq Murad**

Kəndin əhalisi tarixən azərbaycanlılardan ibarət olmuşdur. Kənddə 1831-ci ildə 12 nəfər, 1873-cü ildə 132 nəfər, 1886-cı ildə 250 nəfər, 1904-cü ildə 380 nəfər, 1914-cü ildə 139 nəfər, 1916-cı ildə 5124 nəfər azərbaycanlı yaşamışdır. Kənd əhalisinin sayının armasına Qafanda olan Mis mədəninin Qatara kəndinə yaxın yerləşməsi olur.

Müxtəlif dövrlərində tarixə nəzər saldıqca azərbaycanlılar ermənilərin soyqırımı, etnik təmizləmə siyasətinə məruz qalıb, min illiklər boyu yaşadığı ərazilərdən zorla deportasiya edilib, sürgün, məşəqqətlər, köçə məcbur olunub. Bu cür etnik təmizləmən qurbanı olub , tarix səhnəsindən silinən kəndlərdən biridə Qatar kəndidir. İstər 1906 - cı il iyul ayındakı erməni erməni silahlı dəstələri kənddə qırğınlar törətmiş və kəndi dağıtmışdılar. Bir müddət sonra kəndin sağ qalmış sakinləri kəndə qayıdaraq kəndi yenidən bərpa edirlər. 1915- ci ildə kənd yenidən erməni quldurlarının hücumuna məruz qalmış , kənd sakinlərinin bir hissəsi Tərtər rayonuna pənah aparmış qatarlılarsa məskən saldıqları yerin adını Qapanlı adlandırmışlar . Qara dumanlar kəndin üzərindən yenidən yan keçməmiş 1918 - ci il soyqırımı zamanı erməni daşnaklarına qarşı mübarizə apaparaq öz kəndlərini tərk etmək istəmirlər. Lakin erməni quldur dəstələri öz havadarlarının köməyi ilə kəndi dağıdıb , kənd əhalisinin böyük bir qismini vəhşicəsinə öldürülür.Sağ qalan azımlılıqsa Qubadlı, Zəngilan rayonlarına , Naxçıvan Muxtar Respublikasına və Qafanın digər kəndlərinə pənah gətirirlər.

Azərbaycanlılara qarşı yeridilən soyqırım siyasətinin uzun tarixi olsa da, bu barədə əsl həqiqəti Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində dünya ictimaiyyətinə çatdırılması üçün əməli tədbirlər görülmüşdür. Ümummilli Liderin müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Bu gün Qatar kəndi tarix səhnəsindən silinib, yalnız kitabların vərəqlərində , arxiv sənədlərində və kəndin az qalmış sakinlərinin törəmələrinin xatirələrində yaşayır.Qatar kəndi Zəngəzur azərbaycanlılarının kimliyinin unudulmayan bir parçasıdır.

# ADPU-nun Quba filialında "Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır" mövzusunda tədbir keçirilib




**23 aprel 2026-cı il tarixində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında vətənpərvərlik ruhunda möhtəşəm bir tədbir baş tutub.**



Tədbir çərçivəsində Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd kənd icmasının sədri, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynovanın təqdimatında “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda açıq dərs keçirilib.

Filialın böyük zalında baş tutan tədbirdə əvvəlcə Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan ADPU-nun Quba filialının direktoru, professor Yusif Alıyev Qərbi Azərbaycan mövzusunun bu gün dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb:

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfər bizə tarixi torpaqlarımıza, o cümlədən Qərbi Azərbaycana qayıdışın yolunu açıb. Bu gün keçirilən açıq dərs sadəcə elmi bir mühazirə deyil, həm də gənc nəslin milli kimlik şüurunun formalaşması və tarixi həqiqətlərin gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Mahirə xanım həm bir alim, həm də həmin torpaqların canlı şahidi kimi bu missiyanı böyük fədakarlıqla yerinə yetirir."

Professor Mahirə Hüseynova çıxışının əvvəlində doğma yurd həsrətindən, xalqımızın əsrlər boyu üzləşdiyi deportasiya və etnik təmizləmə siyasətinin acı nəticələrindən bəhs edib. O, Qərbi Azərbaycanın hər bir daşının, hər bir toponiminin qədim tariximizin möhürü olduğunu qeyd edib. Problemin araşdırılmasına toxunan professor əlavə edib:

"Bu, sadəcə bir nisgil deyil, həm də beynəlxalq müstəvidə hüquqi və elmi əsaslarla sübut olunmalı olan haqq işimizdir. Bizim mənəvi borcumuzdur ki, uydurma tarixlərə qarşı faktlarla, sənədlərlə və elmi tədqiqatlarla çıxış edək."

Məruzəçi, həmçinin özünün elmi tədqiqatlarını və tarixi faktlara əsaslanan xatirələrini əhatə edən kitabları barədə məlumat verib. O bu əsərlərin gənc tədqiqatçılar üçün bir yol xəritəsi olduğunu və saxtalaşdırılmış tarixin ifşasında mühüm rol oynadığını bildirib. Professor Mahirə Hüseynova çıxışını "Artıq daşların toplanma vaxtıdır" sözləri ilə yekunlaşdırıb.

Açıq dərsdə rəsmi qonaqlar və ziyalılar iştirak ediblər. İştirakçılar arasında:

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məsul əməkdaşları Rövşən Ağayev və Hilal Salmanov;

Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova;

ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Könül Səmədova;

Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin müdiri, t.ü.f.d. Leyla Cəlalova, Mərkəzin fəal üzvü Möhübbət Məmmədov;

Quba Rayon Heydər Əliyev Mərkəzinin direktoru Sevinc Səlimova;

Ümumi tarix və tarixin tədrisi texnologiyaları kafedrasının müdiri, dosent Dəyanət Musayev;

Azərbaycan Yazıçılar Birliyinin (AYB) Quba bölməsinin sədri, şair Ramiz Qusarçaylı;

Quba Təhsil Sektorunun müdiri Pərviz Nurməmmədov;

Filialın professor-müəllim heyəti və tələbələr yer alıblar.



Tədbirin rəsmi hissəsində çıxış edən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin şöbə müdiri Rövşən Ağayev Qərbi Azərbaycan mövzusunun təkcə tarixi yaddaş deyil, həm də dövlətçilik təfəkkürünün tərkib hissəsi olduğunu vurğulayıb:

"Qərbi Azərbaycan mövzusu təhsil proqramlarının nüvəsini təşkil etməli, bütün tədris pillələrində dərsliklərin məzmununa dərindən inteqrasiya olunmalıdır. Gənc nəsil öz tarixi torpaqlarımızın coğrafiyasını, mədəniyyətini və həqiqətlərini elmi əsaslarla mənimsəməlidir."

Çıxış edən digər qonaqlar Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının milli hədəflərimizdəki yerindən danışaraq, bu cür tədbirlərin regionlarda keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Tədbirin sonunda professor Mahirə Hüseynova tələbələrin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb, iştirakçılara qiymətli kitablar hədiyyə edilib. Sual-cavab formatında davam edən diskussiyada tarixi toponimlərimizin qorunması, folklor nümunələrinin toplanması və beynəlxalq ictimaiyyətə çatdırılması yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib. Tədbirdən sonra ağacəkmə aksiyası da həyata keçirilib.

# “Sazın vəhdəti, sözün hikməti” adlı ədəbi-bədii tədbir keçirilib

***ADPU-nun Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən “Meh” ədəbi dərnəyinin və Şuşa Humanitar Kollecinin birgə təşkilatçılığı ilə Aşıq Ələsgərin 205 illik yubileyinə həsr olunmuş “Sazın vəhdəti, sözün hikməti” adlı ədəbi-bədii tədbir keçirilib.***



ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kollecində keçirilən tədbirdə ADPU-nun Filologiya fakültəsinin dekanı, dosent Könül Həsənova, dekan müavini Arzu İbrahimova, Xarici Dillər Mərkəzinin müdir müavini Günay Alıyeva, “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sədri, Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli iştirak ediblər.

Kollecin direktoru, professor Nasim Abışov tədbir haqqında ümumi məlumat verərək tədbiri açıq elan edib. Ardınca Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli onun yaradıcılığı barədə ətraflı məlumat verib.

Aşıq Ələsgər yaradıcılığına aid videoçarx nümayiş etdirilib, ədəbi-bədii kompozisiya göstərilib və şeirlər, mahnılar səsləndirilib. Sonda tədbirdə fəal iştirak edən “Meh” ədəbi dərnəyinin üzvlərinə kollecin rəhbərliyi tərəfindən təşəkkürnamə təqdim edilib.





toponiminin qədim tariximizin möhürü olduğunu qeyd edib. Problemin araşdırılmasına toxunan professor qeyd edib ki, bu mövzu sadəcə bir nisgil deyil, həm də beynəlxalq müstəvidə hüquqi və elmi əsaslarla sübut olunmalı bir haqq işimizdir. Bizim mənəvi borcumuzdur ki, uydurma tarixlərə qarşı faktlarla, sənədlərlə və elmi tədqiqatlarla çıxış edək.

Mahirə xanım eyni zamanda özünün elmi tədqiqatlarını və tarixi faktlara əsaslanan xatirələrini əhatə edən kitabları barədə məlumat verib. O, bu əsərlərin gənc tədqiqatçılar üçün bir yol xəritəsi olduğunu və sax-



# 24 aprel 2026-cı il tarixində Qərbi Azərbaycan İcmasının Quba rayon nümayəndəliyində "Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır" mövzusunda tədbir keçirilib

**Tədbir çərçivəsində Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd kənd icmasının sədri, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynovanın təqdimatında "Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır" mövzusunda geniş çıxış edib.**




Tədbiri giriş sözü ilə açan Qərbi Azərbaycan İcmasının Quba rayon nümayəndəliyinin sədri, Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun direktoru, biologiya elmləri üzrə fəlsəfə doktoru İlham Qaraqurbanlı Qərbi Azərbaycan mövzusunun bu gün dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb:

-Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər bizə tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışın yolunu açıb. Bu gün sizin nümayəndəlikdə keçirilən tədbir gənc nəslin milli kimlik şüurunun formalaşması və tarixi həqiqətlərin gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Professor Mahirə Hüseynova həm bir alim, həm də həmin torpaqların canlı şahidi kimi çıxışının əvvəlində doğma yurd həsrətindən, xalqımızın əsrlər boyu üzləşdiyi deportasiya və etnik təmizləmə siyasətinin acı nəticələrindən bəhs edib. O, Qərbi Azərbaycanın hər bir daşının, hər bir talaşdırılmış tarixin ifşasında mühüm rol oynadığını bildirib. Professor Mahirə Hüseynova çıxışını "Artıq daşların toplanma vaxtıdır" sözləri ilə yekunlaşdırıb.

Tədbirdə rəsmi qonaqlar, rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar iştirak ediblər.

İştirakçılardan Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məsul əməkdaşları Rövşən Ağayev və Hilal Salmanov, ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Könül Səmədova, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin müdiri, t.ü.f.d. Leyla Cəlalova, Mərkəzin fəal üzvü Möhübbət Məmmədov, Ümumi tarix və tarixin tədrisi texnologiyaları kafedrasının müdiri, dosent Dəyanət Musayev, Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsinin sədri, şair Ramiz Qusarçaylı, Quba Təhsil Sektorunun müdiri Pərviz Nurməmmədov və başqaları öz çıxışlarında Qərbi Azərbaycan mövzusunun təkcə tarixi yaddaş deyil, həm də dövlətçilik təfəkkürünün tərkib hissəsi olduğunu vurğulayıblar.

Çıxış edən qonaqlar Qərbi Azərbaycan mövzusunun təhsil proqramlarının nüvəsini təşkil etməli, bütün tədris pillələrində dərsliklərin məzmununa dərindən inteqrasiya olunmalı, gənc nəslin öz tarixi torpaqlarımızın coğrafiyasını, mədəniyyətini və həqiqətlərini elmi əsaslarla mənimsəməli olduğunu bildiriblər və Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının milli hədəflərimizdəki yerindən danışaraq, bu cür tədbirlərin regionlarda keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Tədbirin sonunda Mahirə Hüseynova və Rövşən Ağayev Qərbi Azərbaycan İcmasının Quba rayon nümayəndəliyinə müəllifləri olduğu dəyərli kitablar hədiyyə ediblər.

# Eldar o gün olmazdı ki, Dərələyəz haqqında fikirləşməsin

***Bu gündə Qalaser kəndi deyəndə ilk yada düşənlərdən biri də kəndin mərd oğlu Eldar Məmişovdur. 1964-cü ilin yanvar ayında Dərələyəz mahalının Qalaser kəndində yaşayan Tapdıq kişinin bir oğlu dünyaya göz açdı. Qovuşuq heyvandarlıq sovxozunda mexanizator işləyən, halal zəhməti ilə ailəsini dolandıran Tapdıq kişi oğluna Eldar adını qoyur.***

İlk övladının adını Eldar qoyan Tapdıq, Allahdan oğluna gözəl bəxt istədi. Gələcək həyatda oğlunun halal əməyə alışmasını arzulayan ata onun tərbiyəli, vətənpərvər ruhda böyüməsinə çalışırdı.

Valideyinlərinin nəzarəti altında Eldar günü-gündən böyüyürdü.

Hər kiçik bir şeyə diqqətlə baxar, ona maraq göstərib müxtəlif suallar verərdi. Hərdən Hilal kişinin çəpərinin dibində oturub dərə yenişə yerləşən Qovuşuq kəndinə və hündürdən daha yaxşı görünən ətraf aləmə baxmaqdan doymazdı.

Tapdıq kişinin və xanımı Nabatın dörd oğlu, üç qızı olmuşdur. Eldar evin ilk oğlan övladı idi.

Eldar 1970-ci ildə Qalaser kəndindəki səkkizillik məktəbin birinci sinfinə getmişdir. Məktəb kəndin girəcəyində yerləşirdi. Hər gün məktəbə gedişi onun üçün dünyalara dəyərdi. Anası Nabat xanım onu məktəbə gedişini gözdən itənə qədər təqib edər, sonra köksünü ötürüb evə girərdi. Bəlkə, bu da taleyin bir qisməti imiş.



Kənddəki səkkizillik məktəbi qurtaran Eldar qonşu Qovuşuq kəndində təhsilini davam etdirəndə hər gün kəndarası yolu piyada gedib gələrdi. Məqsədi oxumaq olan Eldar boş vaxtlarında atasına kömək edərdi.

Orta məktəbi bitirən Eldar biliyini yoxlamaq üçün sənədlərini ali məktəbə təqdim etdi. Lakin müsabiqədən keçməyən Eldar yenidən doğma kəndə qayıdaraq əmək fəaliyyətinə başladı. Ədəbiyyata maraq göstərən Eldar şeir yazmağı çox sevirdi.

İki illik əmək fəaliyyətindən sonra hərbi xidmətə çağırılan Eldar 1982-1984-cü illərdə keçmiş Sovet ordusu sıralarında olmuşdur. Hərbi xidmətdən sonra yenidən doğma diyara qayıtdı.

1984-1988-ci illər ərzində müxtəlif sahələrdə çalışan Eldar ilk əvvəl fəhlə-çilingər, daha onra isə traktorçu kimi fəaliyyət göstərmişdir. Nəhayət, 1988-ci il hadisələri, mahaldakı digər azərbaycanlılar kimi, onların da ailəsinin isti yuvasından çıxmasına səbəb olmuşdur.

Məmişovlar ailəsinin başçısı ailəsini Bakı şəhərində məskunlaşdırdı. Dərələyəz əhalisinin müxtəlif yerlərdə yerləşməsi ilk günlər daha çox çətinliklər yaradırdı. Əhali bir-birindən, nə teztez xəbər tuta bilir, nə də xeyrə-şərə gedib gələ bilirdilər.

Dağlıq Qarabağ hadisələri, hər bir azərbaycanlı kimi Eldarın ailəsini də narahat edirdi. Daxilindəki narahatlıqla o, Daxili İşlər Nazirliyinin Əzizbəyov rayon Polis şöbəsinə sıravi polis kimi işə daxil oldu.

Müharibənin ilk illərində Qarabağda yaşayan soydaşlarımızın təhlükəsizliyini Azərbaycan polisi qoruya bilirdi. Respublikamızın bütün bölgələrindən gələn polislər növbəli şəkildə xidmət edir, əllərindən gələni əsirgəmirdilər. Həm də həmin dövrdə onlar xalqın yeganə güvənc yeri sayılırdı.

Eldar Tapdıq oğlu həmin dövrdən başlayaraq Qarabağın müxtəlif yerlərində, ən ağır sahələrdə döyüşmüşdür. Onun döyüş yolu Tərtərdən, Murovdan keçmişdir.

Eldar Murovda gedən döyüşlərin birində ağır yaralanır. Yarasının ağır olmasına baxmayaraq, o, təkidlə cəbhə bölgəsində qalmasını xahiş edərək arxaya qaytarılmasına etiraz edir. Daha sonra döyüşlərin birində Eldar qar uçqununun altında qalır. Başına gələn olmazın çətinliklərdən qorxmayan Eldar sona qədər döyüşməyə çalışır.

Döyüşlərdə aldığı müxtəlif xəsarətlər getdikcə onun xəstəliyini ağırlaşdırmağa başladı. Aparılan müalicələr ağciyər xəstəliyinin qarşısını almaqda aciz idi.

Ağır xəstə yatan Eldar o gün olmazdı ki, Dərələyəz haqqında fikirləşməsin, Qalaser kəndini xatırlamasın.

Ancaq söylənilənlər bir xəyal olaraq qalırdı. Doğma torpaqlara bir də qayıtmaq ona nəsib olacaqdırmı, onu bir Allah bilirdi.

Günü-gündən vəziyyəti pisləşən Eldar 1996-cı ilin 22 iyununda dünyasını dəyişdi.

Qarabağımızın müdafiəsində ağır xəsarət alan həmyerlimizin məzarı Mərdəkan qəsəbəsinin qəbirstanlığındadır. Eldarın əziz xatirəsi həmişə bizim qəlbimizdə yaşayacaq.



***Fərhad Ələkbərov,***
***SOCAR "Qaz İxrac" idarəsi, Maliyyə və vergi şöbəsində Aparıcı iqtisadçı,***
***Qərbi Azərbaycan İcması, Keşkənd rayonu Qalaser kənd icma rəhbəri***

# Dərələyəz, "Kiçik Türküstan", yerin altındakı gizli şəhərlər

*Mən aşiq uca dağlar,*
*Başına qondu ağlar.*
*Dərələyəz köçəndə,*
*Dərə ağla, dağ ağlar.*

Dərələyəz toponiminin "dərə" və "ələyəz" sözlərinin birləşməsindən yarandığı, "ələyəz bitkisinin bol olduğu dərə" mənasını ifadə etdiyi ehtimal olunur. Şərqdə Zəngəzur, qərbdə Vedibasar, şimalda Göyçə, cənubda Naxçıvan xanlığının Məvazixatun mahalları ilə həmsərhəd olan Qərbi Azərbaycanın ən böyük mahallarından olan, əsrarəngiz təbiəti-meşə, dağ silsilələri, yaylaqları, bulaqları, mədəniyyət abidələri ilə bənzərsiz olan qədim türk yurdu Dərələyəz həmçinin elmi-ədəbi mühiti, folkloru, ədəbiyyatı ilə öz səciyyəvi xüsusiyyətləri ilə dünyada tanınıb. Dərələyəz folkloru, elmi, ədəbi mühiti Oğuz türk mədəniyyətinin vacib elementi olaraq Qərbi Azərbaycan mədəni irsinin ayrılmaz tərkib hissəsidir.

Dərələyəzin adı ilk dəfə inzibati-ərazi vahidi kimi Şərəf xan Bidlisinin (20.03.1543-1601/02) "Şərəfnaməsində" qeyd edilmişdir. Bu mahal əvvəlcə Xilafətin, sonra Səlcuq dövlətinin, manqolların, Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin, 1747-1828-ci illərdə Naxçıvan xanlığının, 1828-ci ildən Rusiya imperiyasının tərkibində olmuşdur.

Ermənilərin müxtəlif dövrlərdə soydaşlarımıza qarşı apardığı soyqırım və etnik təmizləmə siyasəti son iki əsrdə yüz minlərlə insanın məhvinə və ata-baba yurdundan didərgin düşməsinə səbəb olmuşdur. Tarixi sənədlərə və faktlara əsasən, bu deportasiyalar sistemli şəkildə dörd mərhələdə həyata keçirilmişdir: I Mərhələ (1905-1920-ci illər): Erməni silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı kütləvi qırğınlar və İrəvan quberniyasında, Zəngəzurda həyata keçirilən deportasiyalar:1918-1920-ci illərdə bu siyasət daha kəskin xarakter almışdı; II Mərhələ (1948-1953-cü illər): SSRİ rəhbərliyinin qərarı ilə Qərbi azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycan SSR-ə (əsasən Kür-Araz ovalığına) məcburi köçürülməsi nəticəsində 100 mindən çox insan soyuq, aclıq və çətin şəraitdə deportasiyaya məruz qalmışdır. III Mərhələ (1988-1991-ci illər): Ermənistanda mərkəzi hakimiyyətin dəstəyi ilə azərbaycanlıların sonuncu nəfərinə qədər öz tarixi torpaqlarından etnik təmizləməyə məruz qalması həyata keçirilmiş, 300 mindən çox azərbaycanlı (bəzi mənbələrə görə daha çox) Ermənistandan deportasiya edilmiş, 200-dən çox yaşayış məntəqəsi boşaldılmış, minlərlə insan öldürülmüşdür. Şübhəsiz ki, ermənilərin həyata keçirdiyi deportasiyaların məqsədi Ermənistan ərazisini monoetnik bir dövlətə çevirmək olmuşdur.

Ulu öndər Heydər Əliyevin imzaladığı18 dekabr 1997-ci il tarixində 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında, 28 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlarla Qərbi Azərbaycana qayıdışın təmin olunması istiqamətində fəaliyyət üçün hüquqi təminatlar yaradıldı. Həmçinin Azərbaycan Respublikasının prezidenti, ali baş komandan İlham Əliyevin iqtisadi rayonların yeni bölgüsü haqqında 07 iyul 2021-ci il tarixli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması da bu sahədə atılmış ən vacib addımlardan biridir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası uzun müddətli strateji hədəflərə çatmaq üçün yol xəritəsidir.

Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın doğma yurd-yuvalarına qayıtmasının beynəlxalq hüquqi təminatlarına gəlincə isə şübhəsiz ki, 10 dekabr 1948-ci il tarixli BMT -nin "İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi, 28 iyul 1951-ci ildə "Qaçqınların statusu haqqında Cenevrə Konvensiyası", 1967-ci il Konvensiyasına əlavə Protokol, "İnsan hüquqları haqqında Beynəlxalq Bill", BMT-nin Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200 A (XXI) nömrəli Qətnaməsi ilə qəbul edilmiş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiya, "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı"Konvensiya, "Uşaq hüquqları haqqında Konvensiya, " İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq"



*Seyid Aynur*
*Prezident təqaüdçüsü,*
*ictimai-xadim, yazar*

Konvensiya, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və sair beynəlxalq sənədlər Qərbi Azərbaycandan deportasiya edilmiş, hüquq və azadlıqlar kobud şəkildə pozulmuş soydaşlarımıza öz yurdlarına qayıtması üçün hüquqi təminatlar yaradır.

Şah İsmayıl Xətainin idarəçiliyi dövründə Dərələyəz tarixi əhəmiyyətinə görə strateji bölgə sayılırdı. 1504-cü ildə bu mahal birbaşa Şah İsmayıl Xətai tərəfindən idarə olunurdu. Dərələyəz azərbaycanlıların ən çox mərhələli köçürülməyə məruz qaldığı yerlərdən biridir. Məzarlıqlarda tapılan qoç, qoyun və at daş abidələri bu torpaqların min illiklər boyu Oğuz yurdu olmasının sübutudur.

Dərələyəz həqiqətən yeraltı və yerüstü sərvətlərlə çox zəngin bir bölgədir. Gümüşxana kəndinin yaxınlığındakı gümüş mədənindən hələ Rusiya işğalından xeyli əvvəl gümüş və qurğuşun çıxarılırdı. Aynazur kəndinin yaxınlığındakı silisium tərkibli mineraldan isə vaxtilə tüfəng üçün çaxmaqdaşı düzəldilirdi. Dərələyəz mahalı qədim abidələrlə zəngin idi. Onların arasında isə ən məşhuru Səlimin karvansarası idi. Bu karvansara Dərələyəz mahalından Göyçə mahalına gedən yolda, Səlimin aşırımı deyilən yerdə tikilmişdi. Səlimin aşırımı Dərələyəz və Göyçə mahallarını bir-birindən ayırırdı.

Dərələyəz və onun mərkəz nöqtəsindən olan Çivə (Keşişkənd) kəndində 2008-ci ildə Areni-1 mağarasında aparılmış qazıntılar zamanı beş min beş yüz il yaşı olan dünyanın ən qədim dəri ayaqqabısı tapılmışdır. Bu isə bölgənin tunc dövründən əvvəl də yüksək sivilizasiya mərkəzi olduğunu sübut edir. Həmin mağarada həmçinin altı min il əvvələ aid şərab istehsalı alətləri aşkar edilib ki, bu da bölgənin qədim kənd təsərrüfatı mədəniyyətindən xəbər verir.

Türk tayfası "Yıva"ların son qalası Çivə (Keşişkənd) kəndinin adı birbaşa 24 oğuz tayfasından biri olan Yıva (mənası ali deməkdir) tayfası ilə bağlıdır. Bu tayfa vaxtilə Səlcuqlu dövlətini quran əsas güclərdən biri olub. Dərələyəz bu tayfanın min il boyunca qan yaddaşının qorunduğu nadir məskənlərdən biridir. Bəzi orta əsr xəritələrində bu ərazi "Kiçik Türküstan" adlandırılırdı. Burdakı əhalinin hamısı birmənalı olaraq türk dilli idi.

Dərələyəzin Amadi kəndində vaxtilə möhtəşəm bir türbə mövcud olub. Tədqiqatçılar bu türbənin memarlıq üslubuna görə Əcəmi Əbubəkir oğlu (Naxçıvan memarlıq məktəbi) tərəfindən və ya onun şagirdləri tərəfindən tikildiyini bildirirlər. Bu, Dərələyəzin orta əsrlərdə Naxçıvanla vahid mədəni-inzibati məkanda olduğunun sübutudur.

Dərələyəz ərazisindəki bir çox monastır və kilsələr (məsələn, Gündəvaz kilsəsi) əslində qədim Qafqaz Albaniyasına məxsus olub. Tarixi faktlar göstərir ki, XIX əsrdə ermənilərin bölgəyə köçürülməsindən sonra bu abidələrin üzərindəki alban ornamentləri və epiqrafik yazıları qırılaraq dəyişdirilmiş və "qriqorianlaşdırılmışdır".

1918-1920-ci illirdə erməni daşnak dəstələri tərəfindən Çivə (Keşişkənd) və ətraf kəndlərin əhalisinə qarşı törədilən qırğınlar zamanı insanların bir qismi Arpa çayını keçərək Şərur torpaqlarında sığınacaq almağa çalışıb. Məhz həmin dövrdə həyata keçirilmiş soyqırım nəticəsində çay günlərlə qırmızı rəngdə axdığı üçün: "Arpa çayı daşdı, qanla qarışdı" misralı mərsiyələr yaranmışdı.

Tarixi sənədlər sübut edir ki, 1828-ci il Rusiya işğalına qədər Dərələyəz mahalında yaşayan ailələrin 94.2 %-ni azərbaycanlılar, cəmi 5.8% -ni isə ermənilər təşkil edirdi. 1897-ci il siyahıya alınmasında azərbaycanlılar əhalinin 70.5%-i idi. Çivə (Keşişkənd) kəndində isə 1919-cu ili qədər 1200 nəfər əhalinin hamısı yalnız azərbaycanlılardan ibarət olmuşdur.

1947-ci ildə Stalin və Mikoyanın imzası ilə Çivə (Keşişkənd) kimi bərəkətli kəndin əhalisinin "pambıqçılığı inkişaf etdirmək" bəhanəsi ilə Azərbaycana köçürülməsi əslində bölgəni türksüzləşdirmək üçün düşünülmüş gizli demoqrafik müharibə idi.

Dərələyəz dağlıq relyefə malik olsa da, Çivə (Keşişkənd) və ətrafındakı qayalıqlarda süni mağaralar şəbəkəsi mövcuddur. Bu mağaralar müharibələr zamanı minlərlə insanın eyni anda gizlənməsi üçün sığınacaq rolunu oynayırdı. Bu mağaralar hələ də tam tədqiq olunmayıb, bəzilərinin girişləri 1988-ci ildən sonra qəsdən qapadılıb.

Arxeoloqlar burada üzüm sıxmaq üçün qurğular, qıcqırtma küpləri və saxlama qabları aşkar ediblər. Bu, bəşər tarixində məlum olan ən qədim şərab istehsalı mərkəzidir. "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən bir çox coğrafi adlar və hadisələr Dərələyəz relyefi ilə üst-üstə düşür. Məsələn, dastandakı bəzi döyüşlərin və "qanlı dərə" təsvirlərinin məhz bu mahalın dərələri olduğu ehtimal edilir. Yerli toponimlərin (məsələn, Qazan xanla bağlı yer adları) çoxluğu bunu təsdiqləyir.

Dərələyəz mahalının elmi ədəbi mühitinin öyrənilməsində mədrəsələrin fəaliyyəti də mühüm yer tutur. Çar Rusiyasının hakimiyyəti vaxtı Dərələyəz mahalının bir çox kəndlərində dini təlimlər keçən mədrəsələr elm ocaqları idi. Bu mahalda Azərbaycan dilində təhsil verən məktəblərin fəaliyyəti 1988-ci il deportasiyasına qədər davam etmişdir. Firudin bəy Köçərli kimi görkəmli pedaqoqlar İrəvan Gimnaziyasında dərs demiş, Azərbaycan ədəbiyyatı tarixinə dair materiallar toplamışlar. 1882-ci ildən fəaliyyətə başlayan İrəvan teatrı bölgədəki güclü sənət mühitinin göstəricisi olmuşdur.

Tarix göstərir ki, Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmaq üçün azərbaycanlıların soyqırımını törətmək ermənilərin uzunmüddətli çirkin, azğın milli məqsədi olub. Azərbaycanlılara qarşı iki yüz il davam edən soyqırımı həmin faciələrin əsl səbəbkarlarının kölgədə, cəzasız qalması sayəsində mümkün olmuşdur. Buna görə də soyqırım tarixinin tam təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırılmasına yönəldilmiş təbliğat və təşviqat işlərinə xüxuxi əhəmiyyət verilməlidir. Azərbaycan Respublikasının Prezidenti, ali baş komandan İlham Əliyevin apardığı siyasət nəticəsində doğma yurdlarından didərgin düşmüş 300 mindən çox soydaşımızın Qərbi azərbaycanaöz evlərinə qayıdacağına, Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış azərbaycanlıların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklərin götürüləcəyinə inanırıq.

# QURD AĞZI

**Bütün günü nənəmin dizinin dibindən əl çəkməzdim. Əməllibaşlı ona isinişmişdim. Məni özüylə yatırdırdı. Yatanda ağız-ağıza verib "Kəlmeyi-şəhadət" oxuyurduq. Sonra dualarımızı edirdik. Mən səsimi çıxartmayanda narahat olurdu. Böyrümü dümsükləyirdi. Bu, dayanma işarəsi idi. Məni yuxu aparanda nənəmin tapşırıqlarını tam yerinə yetirə bilmirdim. Ertəsi gün səhvimi düzəldirdim. Gecə Ay doğanda məni də özüylə salavat çevirmək üçün çölə çıxarırdı. Nənəm Ayla söhbət edirdi, məni yuxarıdakına tapşırırdı. Nənəm Allah adamı idi. İslam dininin bütün ayinlərini yerinə yetirməyə çalışırdı.**



*Vəli Həsənov, yazıçı, jurnalist*

Ona bunları qayınanası öyrətmişdi. Qayınanası nənəmə qurd ağzı bağlamağı də öyrətmişdi. Qurd ağzı bağlamağı Qovuşuqda hər adam bacarmırdı. Dərə məhəllədə Molla Həmid də qurd ağzı bağlayırdı. Son vaxtlar Molla Həmidin canavarlarla işi olmadı. Molla deyirdi ki, canavarın ağzını bağlamaq günahdır. Heyvanları çöldə qalan kənd camaatının ümid yeri nənəm idi. Axşam düşəndə, mal-heyvan örüşdən qayıdandan bir qədər sonra qapımız döyülürdü. Kəndin müxtəlif məhəllələrindən gələnlər nənəmə dua oxutdurmaq üçün qapımızda növbəyə dayanırdılar. -Mələsuma xala, dörd qoyun, bir keçi. -Mələsuma xala, iki quzu. - Suma nənə, üç çəpiş, bir dana. Başını qapıdan içəri soxanlar Mələksima nənəmə sifarişlərini yağdırmağa başlayanda arvadın gözü dörd olurdu. Heç kimi qapıdan ümidsiz yola salmırdı. Gələnləri dinləyir, səbrlə işini görürdü. İşin prinsipi belə idi: gələn adam özü ilə qatlanan bıçaq gətirməliydi. Nənəm heyvanı çöldə qalan adamın bıçağını alıb ağzına tutar, duasını oxuyardı.

Bir neçə dəfə duanı öyrənmək üçün az qala nənəmin ağzına girəcəkdim. Dua belə başlayırdı: "Qurdun ağzını bağlayıram çöldə qalan heyvanın üstünə. Ümmüm, sümmüm, bükümmüm..." Nə qədər çalışsam da, ardını yadımda saxlaya bilmirdim. Bir bıçağa oxunan dua təxminən beş dəqiqə çəkirdi. Sonda nənəm bıçağa üfürür, qatlayıb oturduğu yerdə gəbənin altına qoyurdu. Nənəmin oturduğu yerdə bıçaq əlindən tərpənmək olmurdu. "emalatxanasında" hər cür bıçaq var idi.

Nənəm gedənlərin ardınca səslənirdi: Nənəmin -Çalışın səhər saat on ikiyə qədər heyvanlarınızı tapın. On ikidə bıçaqları açacam. Nənəm deyirdi ki, qurdun ağzını bağlı saxlamaq günahdır. Allah tərəfi, kənd camaatı da nənəmdən razılıq edirdi. Deyirdilər, Mələsuma xalanın bağladığı heç bir qurdun ağzı hələ indiyə kimi açılmayıb. Mən nənəmlə fəxr edirdim. Nənəm canavarların qənimi idi. Onlara ağızlarını açmağa imkan vermirdi. Kəndin qoyun-quzusu da kövşəndə nənəmin hesabına kef edirdi. Amma günlərin birində nənəmin ağzını bağladığı canavarlardan biri qaydanı pozdu. Bir axşam qapımızı Ruhəngiz xala döyəndə nənəm evdə deyildi. Ruhəngiz xala keçib yuxarı başda oturdu və danasının Hava meşəsində qaldığını dedi. Bir azdan nənəm gəldi. Onlar nəsə ciddi-ciddi danışdılar. Nənəm Ruhəngiz xaladan xahiş etdi ki, qurdun ağzı bağlanan bıçaq səhərə qədər onda qalsın. Ruhəngiz xala acıqlı-acıqlı dedi: -Sənə verdiklərimi ala bilmirəm. Keçən dəfədən iki bıçağım səndə qalıb, qaytarmamısan. Nənəm oturduğu yerdən iyirmidən çox bıçaq çıxardı: - Hansıdır, seç götür. halına Ruhəngiz xalanın bıçaq seçməyə halı nə gəzirdi. Çöldə qalan danasının yanırdı. -Sən Allah, dananın Əlindəki başına bir bıçağı iş nənəmə uzadıb: gəlməmiş duanı oxu. Nənəm bıçağı alıb duanı oxudu. Üfürüb gəbənin altına qoymaq istəyəndə Ruhəngiz xala əl atıb bıçağı götürdü: - Daha bundan sonra burada bıçaq qoymaram. Bezdim sizə bıçaq daşımaqdan. Ruhəngiz xala dua oxunan bıçağı qoynuna qoyub gözdən itdi. Nənəm onun arxasınca həyətə çıxdı: - Ruhəngiz, burdan evinizə qədər axar çayın üstündən keçəcəksən. Dəyirman arxı da qapınızdan axır. Üstəlik arxı da adlayacaqsan. Qurd ağzı bağlanan bıçaqla axar suyun üstündən keçməzlər. Dua batil olar. Ruhəngiz xala arxasına baxmadan bizdən uzaqlaşdı. Səhər tezdən onun səsi məhəlləni başına götürdü. Heç kim Ruhəngiz xalanı sakitləşdirə bilmədi.

Canavar danasını parçalamışdı. Ruhəngiz xala nənəmə qarğış edirdi: bir - Səni görüm dua deyən dilin qurusun! O nə cür qurd ağzı bağlamaqdır? Olub-qalan danamı onlar da sənin canavarın yedi! Ruhəngiz xala elə bilirdi ki, bütün canavarlar nənəmindir. Nənəm yemə desə, da səhərə qədər ağızlarını bağlı saxlayacaqlar. Qaşı-qabağı açılmayan nənəm başını qaldırıb ona baxdı: - Sənə dedim axı, dualı bıçağı axar çayın üstündən keçirmə. O vaxtdan sonra nənəm qurd ağzı bağlamadı. Camaat da nənəmə arxayın olub qoyun-quzunu çöldə qoymadı. Kəndin mal-heyvanı vaxtında tövlələrə dolduruldu. Axşamlar evimizdə sakitlik oldu, heç kim qapımızı döymədi. Mən də daha ağzı bağlı canavarların dərdini çəkmədim.

# Elmin Kamandar Şərifli Zirvəsi

***Kamandar müəllim haqda yazı yazmaq istək və təfəkkürdən daha çox cəsarət tələb edir. Özü də elə bir alim haqda ki, zamanımızda bu adı bütün ağırlığı ilə daşımağa layiq olan çox az rast gəldiyimiz şəxsiyyətlərdən biri olsun. Eyni zamanda həyatını mətnşünaslıq, əlyazmaşünaslıq elminin tədqiqinə həsr etmiş bir elm fədaisi haqqında düşüncələrimi bölüşmək xoş və qürurverici hissdir. Daim ən ali insani keyfiyyətləri qoruyub saxlayaraq mənalı ömür yaşayan, bilik və təcrübəsini səxavətlə həmkarları ilə paylaşan Kamandar müəllim əqidəsi düz, ədalətli, mübariz ruhlu insandır. Uzun illər Kamandar müəllimlə olan ünsiyyətim, onun fəaliyyətini izləyərək gəldiyim qənaətlər mənə bu sözləri deməyə imkan verir.***



*Muradova Sevda Akif qızı, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsinin böyük elmi işçisi*

Əsl alimlərə xas dərrakə, məntiqi düşüncə, müdrik xarici görkəm, çöhrəsindəki işıq və gözlərindəki nur nəinki gənclərimizə, eləcə də hər hansı yaşdan olan insana, bəli, məhz hər hansı yaşdan olan insana yalnız müsbət keyfiyyətlər, qurub-yaratmaq, oxuyub-öyrənmək kimi hisslər aşılayır.

Xalqımızı, onun elmi potensialını, istedadını dünyada tanıdıran sahələrdən biri də Azərbaycan Mətnşünaslıq elmi məktəbidir. Bu məktəbin yaranması, təşəkkülü və beynəlxalq miqyasda tanınmasında isə Kamandar müəllimin fədakar və əvəzsiz xidmətləri olmuşdur. Kamandar müəllim öz elmi məktəbini yaratmış alimlərdəndir. Bu o deməkdir ki, gənc tədqiqatçıların yetişməsində mühüm rol oynamışdır. Onun rəhbərliyi ilə bir çox gənc alimlik dərəcəsi almış və bu gün onun yolunu uğurla davam etdirirlər. Professor K.Şəriflinin əllidən artıq dissertasiya işinə rəhbərlik etməsi eləcə də rəsmi opponent olması mətnşünaslıq, əlyazmaşünaslıq sahəsində yüksək səviyyəyə malik mütəxəssislərin yetişməsinə göstərdiyi əvəzsiz xidmətlərdir. Bütün bunlarla yanaşı, müxtəlif vaxtlarda Rusiya, Misir, İraq, Yəmən, Türkiyə və digər ölkələrdə keçirilmiş beynəlxalq və regional konfranslarda fəal iştirak edən Kamandar müəllim yüksək səviyyəli elmi çıxışları ilə əlyazmaşünaslıq, mətnşünaslıq elmini layiqincə təmsil və təbliğ etmişdir.

Mübaliğəsiz yəqinliklə deyə bilərik ki, Kamandar Şərifli mənalı və ibrətamiz bir həyat yolu keçmişdir. Hələ gənc yaşlarından öz dərin istedadı, çalışqanlığı, əməksevərliyi və elmə olan böyük marağı sayəsində elmin yollarında pillə-pillə yüksəlmiş, xalqımızın tanınmış və şöhrətli alim-ziyalısına çevrilmişdir. Zəkasının və yaşadığı zəngin həyatının ona verdiyi elm və irfan irsindənmi, yaxud elmdə zəhmətinin bəhrəsindənmi Kamandar müəllim fəaliyyətinin bütün sahələrində həmişə orijinallığı ilə seçilir və fərqlənir.

Dünyanın heç bir sərvəti ilə alına bilinməyən dəyərlər var. Bu heç nə ilə ölçüyə gəlməyən hörməti, rəğbəti, dostluğu, ünsiyyəti qazanmaq, insanlığı ilə bu zirvəyə yetişmək, müasirlərinin qəlbində özünə möhtəşəm abidə ucaltmaqdır. Yaxından baxanda böyük dağları tam əzəməti ilə görmək mümkün olmadığı kimi onun müasirləri olan bizlər də Kamandar Şərifli şəxsiyyətinin əzəmətini hələ çox dərk etməyə çalışacağıq. Eyni zamanda o elə bir alim, şəxsiyyətdir ki, onun haqqında nə qədər yazılsa da, nə qədər deyilsə də, olduğu kimi tam göstərmək mümkün deyil.

Professor Kamandar Şəriflinin əldə etdiyi elmi nəticələrdən şərqşünaslıq, mətnşünaslıq, əlyazmaşünaslıq, islamşünaslıq, eləcə də Ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrində geniş istifadə olunur. Kamandar müəllim beynəlxalq, xüsusən Şərq ölkələri ilə geniş əməkdaşlıq imkanlarından istifadə edərək Azərbaycanın dünyaya tanınmasında çox səmərəli fəaliyyət göstərir. O, Azərbaycanın zəngin mədəniyyəti, qədim tarixi, mütərəqqi dəyişikliklər barədə əsl həqiqətləri əks etdirən çoxsaylı məlumatları, faktları getdiyi xarici ölkələrdə geniş yayır və təbliğ edir.

Kamandar müəllim 50 ildən çoxdur ki, məhsuldar elmi fəaliyyət və pedoqiji fəaliyyətlə məşğul olur. Bu rəqəmlərin arxasında gizlənən böyük zaman kəsiyində nə qədər gərgin elmi axtarışlar, uğurlu tədqiqatlar aparıb. Biz sadəcə "quruca" rəqəmləri göstərməklə kifayətlənək: dünyanın müxtəlif ölkələrində çap olunmuş iki yüzə yaxın elmi əsərin, 35 kitabın müəllifidir. Sevindirici haldır ki, bu rəqəmlər, statistik deyil, daim dəyişir, artır. Kamandar müəllim bir an belə dayanmır, daim işləyir, çalışır, öyrənir və öyrədir.

Kamandar müəllimin fəaliyyətinin əsas hissəsi AMEA Məhəmməd Füzuli adına Əyazmalar İnstitutu ilə bağlıdır. O, 30 ildən artıq ki, Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinə rəhbərlik edir. Onun şəxsiyyətinin elmi təşkilatçılıq, rəhbərlik keyfiyyəti ayrıca bir mövzudur. Kamandar müəllimin rəhbərlik etdiyi Ərəbdilli əlyazmaların tədqiqi şöbəsində ona xüsusi sevgi və rəğbət olduğu daim hiss edilir. Onunla hər bir görüş yeni biliklərin, təcrübələrin və ondan daim öyrəndiyimiz həyat eşqidir. Kamandar müəllim ümumərəb mədəniyyəti və ədəbiyyatı, eləcə də, əlyazmalar, mətnşünaslıq haqqında söhbətlər edəndə, adama elə gəlir ki, bu böyük alimin bu sahədə bilmədiyi heç nə yoxdur. Bu illər ərzində mütəxəssislərin hazırlanmasında Kamandar müəllim mühüm rol oynamış və oynamaqdadır. İnkarolunmaz həqiqətdir ki, elmi yaradan alimdir, ancaq alimi yaşadan və ona əbədiyyət gətirən isə elmdir. Kamandar müəllim əqli, iradəsi, gərgin əməyi, daxili inamı, əzmkarlığı ilə bunu artıq sübut edib.

Bu gün təkcə Azərbaycan deyil, Yaxın Şərq ölkələrində, Türkiyədə, Rusiyada mətnşünas alim kimi tanınan Kamandar müəllim hər tərəfli biliyə malik mütəxəssisdir. Onun mətnşünaslıq elminin qədim dövrlərdən müasir dövrə qədər keçdiyi inkişaf yolu, mətnşünaslığın aktual problemləri və bu sahəyə dair tədqiqatları elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Yorulmaz və gərgin əməyi sayəsində Kamandar müəllim öz dərin savadı və xoş niyyətli əməlləri ilə insanlığın ən ali zirvəsində, ən yüksək nöqtəsində dayanaraq, alimlik zənginlikdirsə, insanlıq isə qəlbin, daxili aləmin zənginliyidir anlayışını bir daha öz əməlləri ilə sübut etmişdir. O, iki zənginliyi istər beyin, zəka, istərsə də qəlb, iç dünya zənginliyini özündə cəm edən şəxsiyyətdir. Onu hələ yaxından tanıdığım və onunla təmasda olduğum üçün deyə bilərəm ki, Kamandar müəllim hec kimi özündən narazı salmamışdır. Kömək üçün müraciət edənlərin heç biri ümidsiz geri qayıtmır. Elm və biliyini əsirgəmir. Düzlüyü, doğruluğu, halallığı və xeyirxahlığı özünə amal, həyat yolu seçən bu insan deyərdim ki, nəcibliyin və insanlığın ən yüksək zirvəsində dayanır. Təbii ki, Allah hər bir insana yalnız və yalnız bir ömür payı bəxş edib və gərək bu ömrü elə yaşayasan ki, təmiz və mənalı olsun. O, həyatın mənasını şan-şöhrətdə, mal-dövlətdə, varidat yığmaqda deyil, insanlara yardım etməkdə görür. Nəcib əməllər, xeyirxah işlər sahibi olan bu alicənab insan kimsənin haqqını tapdamadığı, heç kəsi özündən narazı salmadığı üçün hamıdan onun haqqında xoş sözlər eşitmişəm.

Onun pedaqoq və alim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət və qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, dostlarının və tələbələrinin dərin hörmətini qazandırmışdır. O, yaşından asılı olmayaraq hər kəslə öz dilində danışmağı bacarır. Kamandar müəllim, həmişə məntiqlə əsaslandırılmış, eyni zamanda səmimi danışır, adi sözlərlə insanın qəlbində həyat eşqi oynadır. Onunla danışmaq, ona qulaq asmaq çox maraqlıdır. O, cox az adama xas olan düşüncə tərzi ilə müsahibini heyran edir, ən adi sözlərlə insanların qəlbinə nüfuz edə bilir, onların sevimlisinə çevrilir. Öz ixtisasını çox sevir, bu sahədəki mövcud problemləri dərindən bilir və daima bu sahədə baş verən yenilikləri izləyir, bu yenilikləri həm öz fəaliyyətində tətbiq etməyə çalışır, həm də bu barədə öz həmkarlarına məlumat verir, rəhbərlik etdiyi kollektivdəki elmi işçilərin bilik və bacarıqlarının daha da yüksəldilməsi üçün bütün imkanlarından istifadə edir.

O, yüksək peşəkarlığı, dostpərvərliyi, ünsiyyətdə səmimiliyi, istiqanlılığı və qayğıkeşliyi ilə seçilir. Yaşamaqdan, işləməkdən ilham alır, həyata və insanlara nikbin yanaşır, xeyirxahlıq və etimad ab-havası yaradır.

Son əlli ildə Azərbaycanda elmi-pedaqoji fikrin formalaşmasında və inkişafında çox fəal iştirak edən və həlledici söz sahibi olan professor Kamandar Şərifli ömrünün müdrik çağını yaşayır. Kamandar müəllimin xidmətləri dövlətimiz tərəfindən qiymətləndirilmişdir. 2025-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşdür.

Hörmətli professorumuz Kamandar Şərifləni doğum günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm, ona möhkəm cansağlığı, sağlam həyat və yeni yaradıcılıq uğurları arzulayıram. İnanıram ki, hələ uzun illər o, nəcib və xeyirxah əməllərini davam etdirərək insanları mənəvi saflığa çağıracaq, böyük səylə, qətiyyətlə çalışaraq Azərbaycanda mətnşünaslıq, əlyazmaşünaslıq elmlərinin ən son nailiyyətlərini dünya ictimaiyyətinə çatdırmaq sahəsində yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirəcəkdir.

# Sən bir türk qızıydın



***Güllər xanım Babayeva 23 yanvar, 1923 - cü ildə Zəngəzur mahalının, Qarakilsə rayonunun, Şəki kəndində anadan olub. Qarakilsə rayonu Partiya Komitəsinin 3-cü katibi, Zəngəzurun ilk ali təhsilli qadınlarından biri olub.***

Şəki kənd məktəbinin direktoru işləyib. Haqqında hələ uşaqlıqdan eşitdiyim işgüzar, idarəçilik bacarıqları ilə seçilən, adı el-obanın dilindən düşməyən bu xanım haqqında doğmaları ilə görüşdükdən sonra bilmədiyim o qədər ətraflı məlumatlar əldə etdim ki, onun həqiqətən lider qadın keyfiyyətləri ilə qürurlandım. Düşmənin gözünün içinə dik baxan, həmişə öz zəhmətkeş xalqının haqq və hüquqlarının davasını döyən çox vaxt buna nail olan Güllər xanım Babayeva-



*Güllər xanım və həyat yoldaşı Məhəmməd Qurbanov*

nın Qarakilsədə qazandığı hörməti bu gündə cismən aramızda olmasa da yaşayır. Adı həmişə əziz tutulur və hörmətlə xatırlanır. Bu xüsusda bir-iki xidmətini xatırladacam. Türk qanına susayan Andranikin Zəngəzurda heykəlinin qoyulması haqqında eşidən kimi gecə ilə Zəngəzur camaatından topladığı imzaları və etiraz məktubunu Ermənistan Partiya Komitəsinin birinci katibinə əlbəəl çatdıraraq, məsələyə bir dəfəlik son qoyulması tələbindən və haqlı tələbinin müsbət həll edilməsindən o vaxt çoxumuz xəbərsiz olmuşuq. BMT-yə Şəki kəndində seyid Mirağanın gümbəzinin qəsdən ermənilər tərəfindən gecə ikən partladılıb, dağıdılmasını dini ayrıseçkiliyin yol verilməz olduğu zəminində əsaslandıraraq ünvanladığı məktubu və s. çevik, cəsarətli fəaliyyəti ermənilər çox təəssüflənirirdi.

Üzünə qarşı birinci katib dəfələrlə deyib heyif ki, siz erməni deyilsiniz yoldaş Babayeva - biz ermənilər buna çox təəssüflənirik. Sizin kimi cəsarətli qadın çox təəssüf ki erməni deyil - deməsinin qürurunu yaşadıb, dörd bir tətəfi erməni əhatəsində olan bu ləyaqətli türk qadını.

Güllər xanımın həyat yoldaşı Məhəmməd Qurbanov Şəki kənd orta məktəbində coğrafiya fənnini tədris edib.

Qeyd edək ki, Güllər xanımın ən böyük dəstəkçiləri həyat yoldaşı Məhəmməd müəllim, eyni zamanda, Şəki kəndinin aqronum olan qardaşı Mamed Babayev olub.

Güllər xanım 22 may, 1999-cu ildə Bakıda dünyasını dəyişib. Son nəfəsində Şəkini arzulayıb... Mehdiabad qəbiristanlığında dəfn olunub.

Ruhunuzu Allah şad etsin, Güllər xanım. Sizin heç bir yaxşılığınız unudulmayıb. Evsizləri evli etmisiniz, bir əliniz az təminatlı camaatımızn üstündə olub.

Hörmətlə andıq Sizi - ləyaqətli, mərd qadın!



***Azadə Novruzova***
***Azərbaycan Yazıçılar Birliyinin (AYB), Azərbaycan Jurnalistlər Birliyinin (AJB) üzvü, Prezident mükafatçısı, şair-publisist, Qərbi Azərbaycan İcması, Qarakilsə rayonu, Şəki kənd İcmasının sədri***

# Türkün, türk oğlunun əzəli, əbədi məkanı

*(Əvvəli ötən sayımızda)*

Kənd ərazisindəki toponimlər: Gəlin qaya, Dağ bulaq, Ağ bulaq, Yellicə, Xor-xor bulaq, Seyidlər düşən, Öküzlü, Çömçə bulaq, Aləmşah, Kəndirbaz, Zaman təpəsi, Çirişli, Dəf yalı, Şingirlik, Quzey qala, Vənli Güney, Mac, Gamışlı yataq, Pullu bulaq, Qoğlan - qız, Sadıq gölü və s.

Şahverdilər - Zəngəzur mahalının Gorus rayonunda kənd adıdır. Rayon mərkəzindən 14 km cənubda, Gorus - Qafan şose yolunun kənarında, Bərgüşad çayının üzərində yerləşir. Kəndin adına Şahverdiuşağıda deyilirmiş, toponim kəndin əsasını qoyan məşur nəslin adı ilə əlaqələnir. Kənd ətrafında olan qədim yaşayış qalıqları kəndin qədim türk tayfalarına aid olduğu sübut olunur.

Kənd ərazisindəki toponimlər: Cəhənnəm dərəsi, Süleyman bulağı, Oxçu kahası, Qara qaya, Düzülmə qaya, Dolayı bulaq, Dəlik daş, Heydərin yurdu, Qırlı bulaq, Cinni dərə, Qapı daşı və s.

Şamsız - Zəngəzur mahalının Gorus rayonunda kənd adıdır. Rayon mərkəzindən 42 km cənubda, Kəpəz dağının yaxınlığında, meşəlikdə yerləşir. Kənd qədim kənd olub , Qızılbaşların bir qolu olan Şamlı tayfasının məskunlaşsığı ərazidir. Zamanla kəndə müxdəlif tayfalar məskunlaşıb, sonralar isə əhalisi dəmək olar ki , azalıb . Buda erməni daşnaqlarının zaman -zaman əraziyə hücumu nəticəsində əhalinin başqa yerlərə köçməsi, bu kəndi tərk edib başqa yerdə məskunlaşmasıdır.

Qurtqalaq - Zəngəzur mahalının Gorus rayonunda kənd adıdır. Rayon mərkəzindən 40 km cənub-şərqdə, Gorus-Qafan avtomobil yolunun sağında, sıx meşənin içində, səfalı bir məkanda



***Ağayeva Natəvan Fəxrəddin qızı, ADPU-n disertantı, ADİU-nin UNEC "xarici dillər " departamentinin baş müəllimi***

yerləşir. Qurtqalaq toponimi, kəndə məskunlaşan türk mənşəli qurd etnoniminə əsasən yaranan etnotoponimdir. Türk mənşəli Qutd tayfasının burda məskunlaşması yəni Qurd tayfanın adı , qalaq isə toplum , qalanlara istinad olunur. Kəndə olan qədim qəbirsanlıq kəndin tarixinin keçməşə bağlı olduğunu sübut edir.

Kənd ərazisindəki toponimlər: Qiblə daşı, Qızılqaya, Soyuq bulaq, Ağa çayı, Bəbir yurdu, Bəxtiyar dərəsi.

Adət ənənələri:

Toy adətinə görə, bu mahalda toy üç davam edirdi. Adətə görə oğlan evi xonça tutub qız evinə "paltar biçdi"yə gedərdi. Qız evi adətə görə süfrə açıb gələnləri qarşılayardılar. Yemək süfrəsində hər kəs bir birilə söhbət edir, tanış olmayanlar tanış olardılar, məclis qızışardı. Sonda oğlan evindən gələn xonçalar açılıb məclisdə olan qohum- əqrabaya, qonum-qonşuya , gələn qonaqlara gəlin üçün nə alınıbsa onları göstərərmişlər. Qız evi məmər hazırlayıb gələn qonaqlara pay verərmişlər. Bu hadisələrin hər biri çox maraqlı olur, qız gəlinlər neçə gün yığılıb bir yerə bu prosesə hazırlaşarmışlar. Xına yaxdı gecəsi oğlan evindən yaxın qadın qohumlar, qızın rəfiqələri, qız evindən yaxın qohum qadınlar yığılıb "xına gecəsi" keçirərmişlər. Sabahsı isə toy mərasımı başlıyarmış. Əvvəlcə toybaşı seçilərmiş (kəntdə ən fəal, bir çox toylarda sınınmış kişi əsasən seçilirdi), toybaşı toyu təşkil edib, məzəli oyunlarla toyu idarə edirmiş. Bu bölgənin maraqlı adətlərindən biridə, toyda rəqs edənlərdən biri toybaşının əmrinə tabe olub, o cibindən nə çıxardırmışsa o da çibindən onu çıxardarmış, əks halda uduzarmış və toybaşı nə cəza verərmişsə onu yerinə yetirərmiş . Bəy doslarıyla maraqlı rəqqs edirmiş , adətə görə bəyin sağdişi və soldişi ilə gəlinin sağdişi və soldişi rəqqs edərmiş kim tez yorulsa o xələt (yəni hədiyyə) verərmiş. Qızın sağdişi və soldişi oğlanın sağdişi və soldişinə xüsusi xonca düzəldib onlara satarmışlar. Qızlar isdədiyi məbləği alana qədər oynayarmışlar.

Bayramlar: Cilə bayramı, Çərşənbə bayramı, Qurban bayramı, Orucluq bayramı .

Bayatılar:

*Əzizim ay "Ağ" bulaq*
*Ay damağı çağ bulaq,*
*Bildinmi heç sinəmə*
*Çəkildi min dağ bulaq.*

*Əzizim "Daşlı güney"*
*Ay gözü yaşlı güney,*
*El dağlıdı başından*
*Başı savaşlı güney.*
*Əzizim ay "Göy bulaq"*
*Getdim qara gey, bulaq,*
*Səni ata bilməzdim*
*Şahiddi yer, göy bulaq*

*Harayım, ünüm Vətən*
*Xoş gəlsin günün Vətən*
*Gözün o tayda olsun*
*Gözünə dönüm vətən!*

*O şəhə, o da qala*
*At məni oda, qala*
*Qız sevdim mənim olsun*
*Sevmədim yada qala.*

*Yuxuda gördüyüm qız*
*Saçını hördüyüm qız*
*Kaş yuxum çin olaydı*
*A könül verdiyim qız.*

*Bəxtimə baxan qarı,*
*Bəxt gəlmir mənə sarı.*
*Görən hansı qızdadır*
*Ürəyimin açarı.*

Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Bu illər ərzində bir çox tarixi hadisələr baş verir. Bəziləri müəyyən dövrdən sonra yaddaşlardan silinir, unudulur. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. Qərinələr ötsə də, nəsillər bir-birini əvəz etsə də, öz qanları ilə dastan yazan şəhidlərimiz, torpaq uğrunda canından keçən oğul və qızlarımız heç vaxt unudulmurlar. Ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayırlar. Uca Yaradanın, Vətənin, xalqın yolunda canlarını fəda edənlər hər zaman hörmətə layiqdirlər. Hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə, torpağa olan məhəbbət yaşayır. Vətən, torpaq sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Hər kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini də Vətən torpağında atır və torpaq sevgisinin hərarətini də elə bu zaman duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an da belə Vətənsiz yaşaya bilmir. Bu amal uğrunda gözünü qırpmadan, ölümün gözünə dik baxan Vətən övladlarını yad etmək, xatirələrini əziz tutmaq hər birimizin ən müqəddəs borcudur.

Bu gün şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Gənc nəslə qürur yerimiz olan şəhidlərimizi tanıtmaq, onları vətənpərvərlik ruhunda böyütmək, torpağına bağlı, xalqına hörmət hissi ilə tərbiyə etmək isə hər bir ölkə vətəndaşının ən ümdə vəzifəsidir. Bu gün bizim qürur mənbəyimizə çevrilən şəhidlərimizlə gənclərimiz və eləcə də bütövlükdə Azərbaycan xalqı fəxr edir. Ölkəmizin hər bölgəsindən "Bu Vətən bizimdir" deyib canını Azərbaycanımızın ərazi bütövlüyü naminə qurban verən igid və mərd oğullarını kimi Gorus mahalından olan şəhudlərimizdə yaxından tanımalı, onların əziz xatirələrini həmişə yad etməlidir.

Ağayarov Mehman Museyib oğlu
Ağayev Habil Kamran oğlu
Adgözəlov Elşən Telman oğlu
Babayev Nizami Hidayət oğlu
Dadaşov Rafael Cənnət oğlu
Əsgərov Şahin Rəcəb oğlu
Məmmədov Müşfiq Yusif oğlu
Nifdəliyev Azər Bayram oğlu
Orucov Seymur Şəmil oğlu
Tahirov Rahim Əvəz oğlu

Şəhidlərimiz hər zaman bizim qəlbimizdədir, onlar ürəklərdə yaşayıb, yaşayır və yaşayacaq! Unutmayaq ki, onlar ən ali qürur mənbəyimizdir.

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
*Redaktor*
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**